# 11 Sentyabrdan sonra "terrorla mübarizə" dünyanı hansı səviyyəyə gətirib çıxardı?



American Herald Tribune

U.S. WORLD OPINION IN DEPTH POLITICS RELIGION HISTORY YOUTH HUMAN RIGHTS ALL

TRENDING TOPICS: Palestine | Rohingya Genocide | MAGA | Syria Crisis

POLITICS

SEPTEMBER 12 ,2017 BY HARUN YAHYA

## The Ramifications of the Post-9-11 "War on Terror"

The terrorist attacks of September 11, 2001 marked one of the biggest and most violent terrorist attacks in the history of humankind, striking horror in the hearts of the entire world. It was at the same time a critical turning point that altered the course of history since the early 2000s.

In the wake of this inhumane and brutal attack that shook all nations, and above all the people of the USA, US President George W. Bush declared a "War on Terror." It was barely a month after he had declared the war during his speech in the Congress, he gave the order of air strike on Afghanistan on October 7, 2001.

While the invasion of Afghanistan raged on, using the so-called report by Tony Blair, the then Prime Minister of Britain, and the British Intelligence saying "Iraq is in possession of weapons of mass destruction," this time the Bush administration gave the order for the invasion of Iraq.

However today, the Chilcot Report has exposed Blair's intelligence report, which subsequently dragged the US into the Iraq war, to be unsubstantial. There were no weapons of mass destruction in Iraq whatsoever; Blair ultimately had to admit to this fact and recently, the messages Blair sent to Bush between 2001-2007 have been exposed in the press. These messages laid bare the fact that Blair was the person who guided the US President in every respect as well as that he was the mastermind behind the Afghan War.

Prime Minister of Britain, and the British Intelligence saying "Iraq is in possession of weapons of mass destruction," this time the Bush administration gave the order for the invasion of Iraq.

However today, the Chilcot Report has exposed Blair's intelligence report, which subsequently dragged the US into the Iraq war, to be unsubstantial. There were no weapons of mass destruction in Iraq whatsoever; Blair ultimately had to admit to this fact and recently, the messages Blair sent to Bush between 2001-2007 have been exposed in the press. These messages laid bare the fact that Blair was the person who guided the US President in every respect as well as that he was the mastermind behind the Afghan War.

POPULAR | LATEST

What We Saw in North Korea Goes against Everything Western Media Wants Us to...
BY TIM ANDERSON | 1.9K SHARES

Myanmar: Why the World Turns a Blind Eye to Another Muslim Genocide
BY CJ WERLEMAN | 850 SHARES

The AbuZayd-Pinheiro Committee: Systematic Misinformation on Syria
BY TIM ANDERSON | 313 SHARES

2001-ci ildəki 11 Sentyabr terror hadisəsi bütün dünyanı dəhşətə salan, bəşəriyyət tarixinin ən böyük və qanlı terror aktı idi. Bu hadisə 2000-ci illərin əvvəlindən başlayaraq tarixin gedişatına təsir edən dönüş nöqtəsi oldu.

Başda ABŞ xalqı olmaqla bütün millətləri sarsıdan bu hücumlardan sonra ABŞ prezidenti Corc Buş məşhur "Terrorla mübarizə" (“War on Terror”) elanını verdi və bir ay keçməmiş 7 oktyabr 2001-ci ildə Əfqanıstana havadan hücum əmrini verdi.

Əfqanıstanın işğalı davam edərkən Buş rəhbərliyi həmin dövrdə İngiltərənin Baş naziri Toni Bler və İngiltərə kəşfiyyatının “İraqda kütləvi qırğın silahları olduğuna dair hesabatını” əsas göstərərək 2003-cü ilin martın ayının 20-də İraqı işğal etmə əmrini verdi.

Bu gün Kilkot hesabatı ilə məlum olmuşdur ki, ABŞ-ı İraq müharibəsinə sövq edən Blerin kəşfiyyat hesabatı həqiqətləri əks etdirmir. İraqda kütləvi qırğın silahları yox idi və Bler də sonda bunu etiraf etmək məcburiyyətində qaldı. Son dövrlərdə isə mətbuatda Blerin

2001-2007-ci il tarixləri arasında Buşa göndərdiyi mesajlar ortaya çıxıb. Bu mesajlarda onun hər məsələdə, həmçinin Əfqanıstan müharibəsində ABŞ prezidentinə yol göstərdiyi məlum olub.

"Terrorla mübarizə" siyasəti terrorçulardan başqa hər kəsə ziyan vurdu:

- İslam dünyası tarixinin ən böyük fəlakət və tənəzzülünü yaşadı. Minillik tarixi şəhərlər, yaşayış məntəqələri yerlə yeksan edildi. Milyonlarla günahsız insan həyatını itirdi, yurdundan didərgin oldu, qaçqın vəziyyətinə düşdü. Yüz minlərlə insan yaralandı, şikəst oldu. On minlərlə insan ağlasığmaz işgəncələrə, zorakılıqlara məruz qaldı. Həyatda qala bilənlər isə yoxsulluq və xəstəlik içində yaşamağa çalışır. İraq və Əfqanıstanda dinc əhali üzərində sınaqdan keçirilən bombalara ucbatından bu gün bir çox uşaq şikəst doğulur.

- "Terrorla mübarizə" İslam aləmi qədər olmasa da, Qərb dünyasına da zərər vurdu və vurmağa davam edir. Hərbi mübarizə üsulu terrorun daha da artmasına və bütün dünyaya yayılmasına səbəb oldu. “Boston Globe” qəzetindən Endryu Baseviçin (Andrew J. Bacevich) dili ilə desək, terrorun "metastaz" verməsinə səbəb oldu.

Terrorla mübarizədən sonra Yaxın Şərqdən Avropaya yayılan radikal terrorizmin ən qanlı nümunələrindən bəziləri bunlardır:

2004-cü ilin mart ayında Madriddə, 2005-ci ilin iyul ayında Londonda, 2015-ci ilin yanvar-noyabr aylarında Parisdə, 2016-cı ilin yanvar ayında İstanbulda, mart ayında Brüsseldə, iyul ayında Nitsada, dekabr ayında Berlində, 2017-ci ilin yanvar ayında İstanbulda, aprel ayında Stokholmda, may ayında Mançesterdə, iyun ayında Londonda, avqust ayında Barselonada.

Bütün dünyanı buraya əlavə etsək, siyahı çox uzanar.

"Terrorla mübarizə"nin ABŞ-a verdiyi maddi və mənəvi zərər 11 Sentyabrın verdiyi zərərdən qat-qat artıq oldu.

İraqda 2003-2014-cü illər arasında 4491, Əfqanıstanda 2016-cı ilin oktyabr ayından etibarən isə 2386 ABŞ əsgəri həlak oldu. 20.049 amerikalı isə müharibədə yaralandı. Əfqanıstanda müharibə zamanı həyatını itirən dinc amerikalıların sayı isə 1173 idi.

Təkcə 2012-ci ildə 349 ABŞ əsgəri bu müharibələrdə iştirak edib depressiyaya düşərək intihar etmişdir. Bu rəqəm həmin il müharibədə ölən ABŞ əsgərlərinin sayından (295) da çoxdur.

"Terrorla mübarizə" ABŞ iqtisadiyyatına da böyük zərbə vurdu. Belə ki, 2001-ci ildən davam edən Əfqanıstan müharibəsi ABŞ tarixinin ən uzun müharibəsidir. Harvard Universitetindən Linda J. Bilmesin araşdırmasına görə, İraq və Əfqanıstan müharibələrinə çəkilən xərc 4-6 trilyon dollardır. Bilmes araşdırmasının nəticəsində haqlı olaraq "4 trilyon dollarla nə aldıq?" sualını verir.

Əlbəttə ki, bu iqtisadi tənəzzül ən çox ABŞ cəmiyyəti üzərində təzahür etdi. “Feeding America” təşkilatının məlumatına görə, əhalinin 15%-ni təşkil edən 48 milyon amerikalı yoxsuldur. 42 milyon amerikalı isə aclıqla mübarizə aparır. Miçiqan və Harvard universitetləri tədqiqatçıları tərəfindən aparılan bir araşdırmaya görə, gündə 2 dollardan az gəlirlə yaşayan kasıb ailələrin sayı son 15 ildə iki dəfə artaraq 1,5 milyona çatıb. 20 milyon amerikalı furqonlarda yaşayır. 565 min insan hər gecə küçələrdə yatır, bunların 48 mini keçmiş əsgərlərdir.

11 Sentyabrdan sonra Yaxın Şərqdə həyata keçirilən hərbi əməliyyatlardan sonra Qərbə doğru yayılan radikal terror ABŞ xalqının qorxu içərisində yaşamasına səbəb olmuşdur. ABŞ-da son 5 il ərzində 3 müxtəlif terror aktı həyata keçirilib:

2013-cü ildə Boston Marafonunda radikal terrorçunun təşkil etdiyi bombalı hücumda 3 nəfər öldü, 264 nəfər isə yaralandı. 2015-ci ilin dekabr ayında ər-arvad əlillərə xidmət

edən səhiyyə təşkilatını hədəf alaraq 14 nəfərin ölümünə səbəb oldu. Sonradan hücumun İŞİD-lə əlaqəli olduğu ortaya çıxdı.

Terrorla mübarizə və təhlükəsizlik adı altında Patriot Qanunu kimi, ABŞ xalqı üzərində təzyiq, qorxu, şəxsi həyatın məxfiliyinin aradan qaldırılması kimi saysız-hesabsız qanun və aktlar qəbul olundu.

Nəticədə Bler və MI6 gizli kəşfiyyat xidmətinin istiqamətləndirməsi ilə ABŞ-ın düşdüyü "Terrorla mübarizə" fiaskosunun ölkəyə gətirdiyi vəziyyət heç də ürəkaçan olmadı. Yeni hökümətlər də yüzlərlə nəticəsiz və uğursuz təcrübəyə baxmayaraq, bu tarixi səhvdən geri dönmək əvəzinə eyni səhvi təkrar edirlər.

Kiçik bir maarifləndirmə ilə belə radikal terrorizmin sülh, sevgi, birlik və qardaşlığa çağıran Quranla ziddiyyət təşkil etdiyini ortaya çıxarmaq olardı. Radikal terror düşüncəsinin qədim dövrlərdən qalma adətlər, xurafatlar, qəbilə mədəniyyəti kimi primitiv və vəhşi ənənələrdən qaynaqlandığı həqiqətini işıqlandırmaq olardı.Terrorun ideoloji mənbəyi olan fanatik, radikal inanc sistemi Qurana əsaslanan genişmiqyaslı və peşəkarlıqla təşkil olunan maarifləndirmə kampaniyası ilə bütün İslam aləmindən birdəfəlik sıyrılıb atıla bilərdi. Bunlar bu günə qədər edilmiş bütün hərbi müdaxilələrdən daha əsaslı, uzunmüddətli, xərc tələb etməyən, qan tökülməsinə səbəb olmayan, ziyansız, sülhü və qəti həll yolunu təmin edən ən mükəmməl üsullar olacaqdı. Qeyd olunanlar bu günə qədər edilməmiş ola bilər. Önəmli olan itirilmiş vaxta baxmayaraq yeni “11 Sentyabr”ların baş verməsinin qarşısının alınması üçün birlikdə tədbir görülməsidir.

Adnan Oktarın "American Herald Tribune"da (Amerika) yayımlanan məqaləsi:
https://ahtribune.com/politics/1895-ramifications-of-the-post-9-11.html

https://www.harunyahya.info/az/meqaleler/11-sentyabrdan-sonra-terrorla-mubarize-dunyani-hansi-seviyyeye-getirib-cixardi